BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2006

# SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA MƏCƏLLƏLƏŞDİRMƏNİN ƏSAS CƏHƏTLƏRİ

**E.R.QULİYEV**
*Bakı Dövlət Universiteti*

*Məqalədə Azərbaycanın hüquq tarixində mühüm hadisələrdən biri olan məcəlləşdirmənin sovet dövrünə təsadüf edən inkişafı tarixinin ümumi qanunauyğunluqları işqılandırılır. Sovet dövründə məcəlləşdirmənin əsas cəhətləri kompleks şəkildə təhlil edilir. Belə ki, başlıca yerin müvafiq aktların hazırlanması və qəbulu prosesinə verilməsi ilə yanaşı onların texniki-hüquqi xüsusiyyətlərinə də nəzər yetirilmişdir.*

Müasir dövr qanunvericiliyinin inkişafı və təkmilləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malik olan sistemləşdirmənin və onun xüsusi növü kimi məcəlləşdirmə fəaliyyətinin respublikamızın ərazisində uzun tarixi keçmişi vardır. Həmin fəaliyyət Azərbaycanın Rusiyanın tərkibinə qatılmasından sonra, xüsusən də sovetləşmə dövründə öz inkişafının ən yüksək hədlərindən birinə çatmışdır. İstər nəzəri əsaslandırılması (söhbət məsələnin nəzəri-hüquqi tərəflərindən gedir), istərsə də həyata keçirilməsi təcrübəsi baxımından onun müasir Azərbaycan qanunvericiliyinin inkişafına təsiri böyükdür. Buna görə də, sözügedən məsələlərin ayrıca olaraq öyrənilməsinə, ilk növbədə də məcəlləşdirmənin sovet dövründə əldə etdiyi əsas nəticələrin və müasir dövr üçün əhəmiyyətinin göstərilməsinə, bütün mənfi və müsbət cəhətlərinin üzə çıxarılmasında ehtiyac var.

Azərbaycan qanunvericiliyinin inkişafı tarixində mərhələ kimi, sovet dövrü digərlərinə nisbətən qısa olsa da, məhz bu dövrdə məcəlləşdirmə fəaliyyəti hüquqyaradıcılığı sahəsində əhəmiyyətli yer tutmuşdur. Qısa müddət ərzində çoxlu saylı məcəlləşdirmə aktları qəbul edilərək, bu sahədə müəyyən ənənənin əsası qoyulmuşdur.

Tədqiq edilən fəaliyyətin xronoloji çərçivələrinə gəldikdə isə onu qeyd etmək lazımdır ki, Azərbaycan SSR-də həyata keçirilən məcəlləşdirmə sosialist hüququnun bütün tarixi inkişafı boyu həyata keçirilmişdir. Məsələn, onun əvvəlcə XX əsrin 20-30-cu illərində (sosialist hüquq sisteminin təməlinin qoyulduğu dövrdə), daha sonra isə 60-80-ci illərdə («inkişaf etmiş sosializm» dövrünün hüququ qurularkən), nəhayət XX əsrin axırlarında SSRİ-də demokratikləşdirmə prosesinin, dövlətə və hüquqa olan münasibətin yenidən baxılması çərçivəsində 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində (doğrudur bu zaman müvafiq fəaliyyət məlum səbəblərdən axıradək aparılmamış, lap ilk mərhələdə dayandırılmışdır) həyata keçirilməsi bir tarixi faktdır. Bunu rəhbər tutan hüquq elmi artıq 80-ci illərin axırlarında sovet respublikalarındakı məcəlləşdirmə işinin iki mərhələdə aparılmasını təsbit etmişdir. Öz tərəfimizdən həmin müddəalarla razılaşaraq,

Azərbaycan SSR-də həyata keçirilən məcəllələşdirmə işinin tarixi inkişafını həmin mərhələlər və xronoloji çərçivələr daxilində aparılacağını bildiririk.

Əvvəlcə onu qeyd etmək lazımdır ki, Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ilk illərində (1920-1921-ci illərdə) məcəllələşdirmə fəaliyyəti hələ geniş vüsət almamış, hətta bütövlükdə hüquqyaratma fəaliyyəti təkmil olmaqdan çox uzaq idi. Belə ki, burada çoxlu adda normativ akt (dekret, qərar, əsasnamə, təlimat, əmr, müraciət və s.) verilirdi. Onlar arasındakı iyerarxiya, hər birinin tənzimlədiyi münasibətlərin dairəsi, struktur xüsusiyyətləri, hətta rubrikasiya, üslub və digər texniki qaydaları belə qeyri-dəqiq və aydın deyildi. Eyni zamanda, hansı dövlət orqanının konkret olaraq hansı adda normativ sənəd verə bilməsi də dəqiq müəyyənləşdirilməmiş, bunun nəticəsində də hüquqyaratma subyektlərinin sayı qeyri-müəyyən idi. Başqa sözlə, qanunvericilik sisteminin özü hələ tam olaraq formalaşmamışdır.

Onu da qeyd etmək lazımdır ki, ilk sovet dekretlərilə (söhbət hər şeydən əvvəl **«Xalq məhkəməsi haqqında»** 12 may 1920-ci il tarixli dekretdən gedir) məhkəmələr və digər hüquq-mühafizə orqanları bütün inqilabaqədərki, o cümlədən ADR dövrünə aid olan, qanunvericilik aktlarının tətbiqini həyata keçirə bilməzdi və Sovet hakimiyyəti orqanlarının verdiyi müvafiq dekret, qərar olmasa məsələni «inqilabi hüquq düşüncəsi» əsasında həll etməli idilər. Bununla da hüquq sahəsində əvvəlki dövrlə varislik ideyası inkar edilirdi. Bu inkar, təbii ki, inqilabaqədərki rus qanunvericiliyi üçün səciyyəvi olan məcəllələşdirmə aktlarına da aid idi.

Lakin ictimai münasibətlərin hüquqi tənzimlənməsi sahəsində qaydaların dəqiq müəyyənləşdirmədiyi və ümumiyyətlə hüquq mədəniyyətinin tam olaraq formalaşmadığı həmin dövrdə Azərbaycan SSR-də məcəllələşdirmə sahəsində ilk addımlar atılır. Belə ki, 1920-ci ilin iyul ayının 9-da Azərbaycan SSR Müvəqqəti İnqilabi Komitəsi tərəfindən **«Cinayət hüququ haqqında Əsas müddəalar»** adlı sənəd qəbul edilir. Sənəd Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığı tərəfindən tərtib edilmişdir və bu zaman nümunə kimi **«RSFSR Cinayət hüququnun Rəhbər Müddəaları»** əsas götürülmüşdür. «Əsas müddəalar»ın layihəsinə Azərbaycan İnqilab Komitəsi tərəfindən müəyyən düzəlişlər edilsə də, onun strukturu və məzmunu Rusiyada qəbul edilmiş sözügedən normativ aktla tam eyniyyət təşkil edirdi. Hətta sənədin adında da müəyyən oxşarlıq vardır. Qeyd edək ki, bu Azərbaycan sovet qanunvericiliyi üçün sonralar ənənəvi hal alır.

Eyni zamanda özünün rusiyalı analoqu kimi «Əsas başlanğıclar» da Azərbaycan SSR cinayət qanunvericiliyini qismən məcəllələşdirmişdir, çünki burada yalnız Ümumi hissəyə aid olan normalar bir araya gətirilir, müəyyən tərzdə ifadə olunaraq, ardıcıllıqla düzülür. Xüsusi hissəyə dair müddəalar isə çoxsaylı dekret və qərarlarda öz əksini taparaq məcəllələşdirməyə məruz qalmamışdır. Hətta Ümumi hissənin də bütün normaları əsas başlanğıclarda birləşdirilməmişdir, ayrı-ayrı cəza növlərinin yuxarı və aşağı hədləri, təyin edilməsi qaydaları digər aktlarla tənzimlənirdi.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda qəbul edilən və məcəllələşdirmə işi üçün mühüm əhəmiyyət kəsb edən sənədlərdən biri də **«Xalq məhkəməsi haqqında»** 12 may 1920-ci il tarixli dekret

olmuşdur. Tədqiqatçılar tərəfindən məcəllələşdirmə aktları sırasına aid edilməsə də, bu sənəd Azərbaycan ən yeni dövr hüquq tarixində ilk dəfə olaraq məhkəmə quruluşu, cinayət və mülki mühakimə icraatı sahəsində hüquq normalarının bir araya gətirilməsi və onların müəyyən sistem halında verilməsini həyata keçirmişdir. Yuxarıda qeyd edilən qanunvericilik sahələrinə aid olan müddəaların çox cüzi hissəsi həmin dekretdən kənarda qalmışdır. Odur ki, «Xalq məhkəməsi haqqında» dekretin məcəllələşdirmə işinə müəyyən cəhd, «protoməcəllə» kimi qiymətləndirilməsi düzgün olardı.

Azərbaycan SSR-də ilk geniş məcəllələşdirmə fəaliyyətinə isə, bütün digər sovet respublikalarında olduğu kimi, 1922-1930-cu illərdə başlanılmışdır. Həmin dövrün hüquq tarixini tədqiq edən alimlərin fikrincə, bu aşağıdakı zərurətdən doğurdu: birincisi, ölkənin sosial-iqtisadi həyatında baş vermiş mühüm dəyişikliklərin təsbit olunması; ikincisi, qanunvericiliyin real vəziyyəti, yəni mənbələrin çoxluğu, normativ-hüquqi aktlar arasında ziddiyyətlərin və onların özlərinin məzmununda boşluqların olması.

Fransız alimi Rene David isə sovet qanunvericiliyinin 20-ci illərdəki məcəllələşdirilməsini yeni iqtisadi siyasətə qədəm qoyma, ölkədə vətəndaş müharibəsindən sonra qayda-qanun yaratma və ən əsası da dövlət və hüquqdan istifadə etməklə sosializm cəmiyyətinin qurulması ideyasının rəsmən qəbul edilməsilə bağlayır. Onun fikrincə qanunçuluq ideologiyasının dirçəldilməsi digər tədbirlərlə (məsələn, prokurorluğun yaradılması kimi) yanaşı ən azı qanunvericiliyin təkmilləşdirilməsi və yığcamlaşdırılması sahəsində mühüm əhəmiyyət kəsb edən məcəllələşdirməni də zəruri etmişdir.

Bütün yuxarıda qeyd edilənlər, həmçinin elmi ədəbiyyatda irəli sürülən onlara bənzər digər ideyalarla razılaşaraq əlavə kimi onu da göstərməliyik ki, 20-ci illərdə həyata keçirilən məcəllələşdirmə prosesi əlverişli şəraitdə, yəni əvvəlcə sovet respublikalarında, daha sonra isə ümumittifaq səviyyəsində konstitusiyaların qəbulu, hüquqyaratmanın ümumi prinsip və qaydalarının təsbit olunması, onun subyektləri dairəsinin dəqiq müəyyənləşdirilməsi, həmçinin mühüm normativ aktların layihələrinin işlənib hazırlanması sahəsində böyük əmək sərf edən icra-sərəncam orqanlarının (Xalq Ədliyyə, Xalq Daxili İşlər Komissarlıqları kimi) təşəkkülü böyük rol oynamışdır. Bu cür təşkilati tədbirlər həyata keçirilmədən yeni qanunvericilik ststeminin formalaşması və məcəlləşdirilmə aktlarının qəbulu mümkün deyildi.

Digər sovet respublikalarında olduğu kimi, Azərbaycan SSR-də də məcəllələşdirmə fəaliyyəti bütövlükdə hüquqyaratmanın tərkib hissəsi kimi RSFSR-in müvafiq fəaliyyət sahələrinin birbaşa təsiri ilə həyata keçirilmişdir, yəni məcəllələşdirmə aktlarının qəbulu məqsədləri, onların hazırlanmasının prinsipləri, bu zaman istifadə edilən hüquqi ideyalar, forma və iş üsulları tamamilə sovet Rusiyasından mənimsənilmişdir. Bunun nəticəsində nəzərdən keçirilən dövrdə qəbul edilən bütün sistemləşdirilmiş hüquqi sənədlər istər məcəllə (Cinayət (1922, 1927-ci illər), Nikah, Ailə, Qəyyumluq və Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı haqqında Məcəllə (1928-ci il), Cinayət-Prosessual Məcəlləsi (1923), Mülki Məcəllə (1923), Mülki-Prosessual Məcəllə (1925), Torpaq Məcəlləsi (1923) və s.), istərsə də digər vahid qanunvericilik aktları (Məhkəmə quruluşu haqqında Əsasnamə kimi (1922)) forma və məzmun cəhətdən, ayrı-ayrı müddəalar nəzərə alınmazsa, eyni adlı Rusiya məcəllələrinə bənzəyir. Adətən, Sovet Rusiyasının qanunvericisi müvafiq

məcəllə layihəsini müzakirə edib qəbul etdikdən sonra digər sovet respublikalarına onu bilavasitə rəhbər tutmağı və ya həmin aktdan istifadə etməklə özlərinin məcəllələrini qəbul etməyi tövsiyə edirdi. Müttəfiq respublikaların ali qanunverci orqanı isə, həmin tövsiyəni rəhbər tutaraq, özünün icra, sərəncam orqanına yeni qanun layihəsi işləyib hazırlamaq tapşırığını verirdi.

Qeyd etmək lazımdır ki, bəzi hallarda müttəfiq respublikanın qanunvericisi müvəqqəti və ya daimi əsaslarla RSFSR məcəllələrinin hüquqi qüvvəsini öz respublikalarına da şamil edirdi. Məsələn, Azərbaycanda Mülki Məcllə qəbul edilənədək 1923-cü ilin fevralın 1-dən sentyabırn 8-dək RSFSR Mülki Məcəlləsi respublika ərazisində qüvvədə idi. Eyni zamanda, 1922-ci il tarixli RSFSR Dəmir Yolu Nizamnaməsi, Əmək qanunları məcəlləsi də birbaşa olaraq qüvvəyə malik idi.

Digər tərəfdən, SSRİ-nin yaradılmasından sonra məcəlləəşdirmə prosesinin mərkəzləşdirilməsi gücləndirildi. İttifaq qanunvericilik orqanları tərəfindən «Əsaslar» formasında qəbul edilən məcəlləşdirmə aktları vasitəsilə müvafiq qanunvericilik sahələrinin ümumi prinsipləri və əsas müddəaları təsbit edilir, həmin prinsip və müddəalar əsasında isə müvafiq ictimai münasibətləri nizamlamaq respublika məcəllələrinin öhdəsinə düşürdü. Lakin SSRİ təşkil edildikdən sonra da, bütün respublikalar kimi, Azərbaycan RSFSR məcəllələrini özünə nümunə kimi götürməkdə davam edirdi.

Beləliklə, ikipilləli vahid sovet qanunvericiliyi sistemi təşəkkül tapır ki, onun məcəlləşdirilməsi vahid və mərkəzləşdirilmiş tədbir kimi həyata keçirilirdi. Yuxarıda deyilənləri nəzərə alaraq, 20-ci illərdə və sonrakı dövrlərdə müttəfiq respublikalar tərəfindən həyata keçirilən məcəlləşdirmə işi ümumi prosesin tərkib hissəsi kimi interpretasiya olunmalıdır.

Mühüm ümumittifaq tədbiri kimi, sovet qanunvericiliyinin 20-ci illərdəki məcəlləşdirilməsi elmi və tədris ədəbiyyatında geniş olaraq təsvir və tədqiq olunduğu üçün onun ətraflı şəkildə burada təhlil edilməsi zərurəti yoxdur. Doğrudur, digər müttəfiq respublikalara nisbətən Azərbaycan SSR-nin qanunvericiliyinin məcəlləşdirilməsinə tədqiqat işlərində nisbətən az fikir verilmişdir. Lakin bu məsələ, müstəqil elmi təhlil tələb etdiyinə və bizim mövzumuza daxil olmadığına görə tərəfimizdən yalnız ümumi tarixi proses kimi səciyyələndirilə bilər. Belə ki, onun aşağıdakı xüsusiyyətləri vardır.

XX əsrin 20-ci illərində Azərbaycanda həyata keçirilən məcəlləşdirmə işi ilk belə bir tədbir olmuşdur və onun analoquna əvvəlki dövrlərdə təsadüf edilmir. Çünki Azərbaycan hüquq tarixində ilk dəfə olaraq onun həyata keçirilməsi uzun zaman çərçivəsində və kompleks şəkildə, yəni qanunvericiliyin müəyyən sahəsinə aid olan bütün normaları əhatə etməklə aparılmışdır. İlk dəfə olaraq, Azərbaycanda sahəvi məcəlləşdirmə həyata keçirilmişdir. Onun aparılmasında əsas rolu qanunvericilik sistemi və onun sahələrə bölgüsü haqqındakı təsəvvürlər oynamışdır. Bunun nəticəsində Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Nikah-Ailə, Qəyyumluq və VVAQ, Torpaq, Meşə, İslah-Əmək Məcəllələri, «Məhkəmə quruluşu haqqında» Əsasnamə tərtib edilmişdir. Lakin başqa müttəfiq respublikalardan fərqli olaraq Azərbaycanda məcəlləşdirmə bütün sahələri əhatə etməmişdir, yəni məhdud səciyyə daşımışdır, çünki yalnız «klassik sahələri», müvafiq hüquq sahəsinə uyğun olan normaları sistemləşdirmişdir. Hətta layihə səviyyəsində belə kompleks sahəvi məcəllələrin (məsələn, Ukrayna SSR-

də tərtib edilən Sosial Təminat haqqında, Səhiyyə haqqında, Yetkinlik yaşına çatmayan şəxslərin hüquq və imtiyazları haqqında Məcəllələrin layihələri kimi) müzakirəsi həyata keçirilməmişdir. Bu da həmin dövrdə məcəlləşdirmə işinin kasadlığından və yerli təşəbbüsün heçə endirilməsindən bəhs edir. Çünki, Azərbayanda yalnız o qanun qəbul edilirdi ki, o artıq Rusiyada təsdiq edilmiş olsun, burada isə klassik sahələr üzrə tərtib edilən aktlar üstünlük təşkil edirdi.

Azərbaycanda ilk dəfə məcəlləşdirmə fəaliyyətinin müəyyən sabit mexanizmi formalaşmışdır. Bu ilk növbədə hüquqyaratmanın qaydaya salınması ilə əlaqədar idi. Lakin həmin mexanizm müttəfiq respublikalarda olandan daha sadə idi. Burada əsas subyektlər kimi XƏK (bəzi müstəsna hallarda isə XDİK) və AzMİK, onun Rəyasət Heyəti çıxış edirdilər. Çox nadir hallarda isə işə XKS qoşulurdu. AzMİK Azərbayan SSR Konstitusiyalarına (1921, 1927 və 1932-ci illər) görə qanunvericilik fəaliyyəti sahəsində geniş səlahiyyətlərə malik idi. Məcəlləşdirmə aktlarının qəbul sahəsində onlar əvvəlcə təşəbbüs göstərir, XƏK-ya müvafiq tapşırıq verir, daha sonra isə tərtib edilmiş layihəni müzakirə edib onu qəbul edir və qüvvəyə minməsi anını müəyyənləşdirir.

Bir sıra hallarda həmin funksiyaları MİK deyil, onun Rəyasət heyəti həyata keçirirdi (məsələn, Azərbaycan SSR Torpaq Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında qanunda olduğu kimi). Bütün növ qanun layihələrinin hazırlanması və təqdim edilməsi, onlar üzrə rəylərin hazırlanması səlahiyyətləri XƏK-na verildiyinə görə, məcəlləşdirmə fəaliyyəti sahəsində onun rolu böyük idi. Əslində həmin komissarlıq bütün belə aktları hazırlayan yeganə orqan id. Yalnız İƏM-nin layihəsi XDİK tərəfindən, Meşə Məcəlləsi və Baytarlıq Nizamnaməsi isə müvafiq komissarlıq tərəfindən hazırlanmışdır. Bütün bunlar XƏK haqqında Əsasnamələrdə də öz əksini tapmışdır. Belə ki, burada həmin komissarlığın funksiyalarından biri kimi qanun layihələri üzərində iş aparmaq, onların təkmilləşdirilməsi üzrə təkliflər vermək, məcəlləşdirmə layihə işlərinin, həmçinin müxtəlif toplu və külliyatların nəşr etdirilməsi və s. göstərişinin bunun əsasında XƏK xüsusi şöbəsi təşkil edilmişdir (qanunvericilik hüquq şöbəsi).

Azərbaycan SSR XKS isə yalnız MİK ilə birlikdə qərarlar verərək artıq qəbul edilən və qüvvəyə minən məcəllələrə düzəlişlər etmişdir. Onun məcəlləşmə sahəsində rolu digər müttəfiq respublikaların analoji orqanlarına nisbətən çox cüzi idi. Eyni zamanda, Sovetlər Qurultayının və geniş ictimaiyyətin bu sahəyə cəlb edilməsi həyata keçirilməmişdir. Yalnız baza məcəlləşdirmə aktlarının (ilk növbədə ailə-nikah hüququna aid olanların) qəbul edilməsi zamanı ictimaiyyət arasında geniş müzakirələr həyata keçirilmişdir

XX əsrin 20-30-cu illərindəki məcəlləşmə nəticəsində onun forması sahəsində əhəmiyyətli yeniliklər baş verdi (əvvəlki dövrlərə nisbətən). Belə ki, ilk dəfə olaraq Məcəllə, Əsasnamə və Nizamnamə kimi aktlar verilməyə başladı. Həmin terminlərin elmi-praktiki istilah kimi dövriyyəyə daxil edilməsi də məhz həmin dövrdən başlanır. Eyni zamanda yuxarıda qeyd edilən aktların arasında bir növ «əmək bölgüsü» müəyyənləşdirildi. Belə ki, məcəllələr yalnız «klassik» qanunvericilik sahələrinin sistemləşdirilməsi üçün, spesifik dövlət orqanlarının təşkili və fəaliyyəti haqqında (məsələn, məhkəmə quruluşu, prokurorluq kimi) normaların qruplaşdırılması, həmçinin ayrı-ayrı institutlar səviyyədəki məcəlləşmə işi üçün isə müvafiq olaraq Əsasnamə və Nizamnamələr

istifadə olunmağa başlanır.

Məcəllələrin qəbulu sahəsində əldə edilən əhəmiyyətli yeniliklərdən biri onların təsdiq edilməinin xüsusi qanun vasitəsilə rəsmiləşdirilməsidir. Bu qanun Məcəlləni qəbul edən orqan tərəfindən verilir, burada hüquq aktın təsdiq olunmasına dair dövlət qərarı ifadə olunur, həmçinin onun qüvvəyə minməsi aktı, bununla bağlı yaranan hüquqi mübahisələrin həmin qaydalarda öz əksini tapırdı. Özünün hüquqi təbiəti və əhəmiyyətinə görə həmin qanun həm nəzəriyyədə, həm də təcrübədə müvafiq Məcəllə ilə ayrılmaz hesab edilir,.

Sovet qanunvericiliyinin məcəlləşdirilməsinin növbəti mərhələsi XX əsrin 60-80-ci illərini əhatə edir. Göründüyü kimi, bu proses əvvəlkinə nisbətən daha uzun zaman kəsiyini əhatə edir. Xüsusi olaraq bu dövrdə dayanmaq qarşımıza qoyulan əsas vəzifə olmasa da, onunla bağlı bir sıra ümumi fikirlər söyləmək zəruridir ki, bunun vasitəsilə 60-cı illərdən başlanan məcəlləşmə işinin tarixi əhəmiyyətinin müəyyənləşdirilməsi mümkün olsun.

Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, 60-80-ci illər məcəlləşməsi daha güclü elmi-nəzəri bünövrəyə əsaslanırdı. Artıq 50-ci illərin ikinci yarısından, yəni sovet partiya-dövlət orqanlarının rəsmi aktlarında qanunvericiliyin təkmilləşməsi və sistemləşməsinə dair qərarların qəbul edildiyi andan, elmi və tədris ədəbiyyatında bu sahəyə müəyyən maraq oyandı. Məcəlləşmə anlayışı, onun əsas cəhətləri, sistemləşdirmə, inkrorpasiya və konsolidasiya kimi hüquqi kateqoriyalarla nisbəti, məcəlləşmənin formaları, həyata keçirilməsinin üsul və vasitələri, mərhələləri və s. məsələlələr həmin tədqiqatların diqqət mərkəzində idi.

Eyni zamanda İttifaq səviyyəsində müvafiq qanunvericiliyin «Əsasları» və ya «Əsas başlanğıcı»nın qəbulu vasitəsilə sözügedən prosesin mərkəzləşdirilməsi gücləndirildi, həmin normativ aktlar müvafiq qanunvericilik sahəsinin ümumi prinsiplərini, əsas institutlarını müəyyənləşdirir, respublika məcəllələri isə yuxarıda göstərilən müddəaları olduğu kimi təkrarlayaraq, həmin sahəyə dair digər məsələləri tənzimləyirdi. Bir qayda olaraq «Əsaslar»dakı üslub, dil və terminologiya respublika məcəlləsində də saxlanılırdı. Ümumiyyətlə nəzəriyyə və təcrübə onlar arasında ciddi fərqlərin olmasını qəbul etmirdi. Xronoloji cəhətdən Əsaslar müvafiq məcəllədən əvvəldə gəlməli idi.

Qeyd etmək lazımdır ki, əvvəlki dövrə nisbətən məcəllələnən sahələrin sayı artmışdır. Belə ki, buraya qismən inzibati, mənzil, əmək və s. sahələr əlavə edilmişdir. Lakin, təssüf ki, ümumittifaq səviyyəsində məcəlləşən heç də bütün sahələr respublikada adekvat tərzdə məcəlləşməyə məruz qalmışdır. Bu onunla əlaqədar idi ki, qanunverici RSFSR-in müvafiq aktlarından «mənimsəmə» yolu ilə məcəllələr qəbul edirdi. Yəni əvvəlki təcrübə yenə öz qüvvəsini saxlamış, bizim məcəlləşən qanunvericilik aktlarımız, cüzi istisnalar nəzərə alınmaqla Rusiyanın normativ aktları ilə eyniyyət təşkil edirdi.

XX əsrin 60-80-ci illərində qəbul edilən məcəllələr əvvəlkilərə nisbətən üslub, terminologiya və rubrikasiya cəhətdən mükəmməl idi. Burada qeydlərin sayı azaldılmış, maddələrin, bəndlərin çətin, uzun ifadə və cümlələri yerinə yığcam, birmənalı və terminoloji cəhətdən dövrün tələblərini əks etdirən söz birləşmələri və cümlələr istifadə edilmişdir.

Qanunverici həmçinin məcəllələr, onlarla digər qanunvericilik

aктları arasındaкı ziddiyyətlərin azaldılmasına da xüsusi fiкir vermişdir. Məcəllə aкtlarının hazırlanması və qəbulu sahəsində əhəmiyyətli yeniliк xüsusi orqanların - müttəfiq respubliкaların Nazirlər Sovet yanında Hüquq Komissiyasının yaradılması olmuşdur. Onun haqqında Əsasnamədə, təкcə qanunvericiliyin məcəlləşdirilməsi deyil, ümumiyyətlə qanunvericiliк sistemindəкi ziddiyyətlərin aradan qaldırılması qarşıda dayanan əsas vəzifələrdən biri кimi müəyyənləşdirilmişdir. Laкin təbii кi, burada məcəlləşmə işinə rəhbərliк əsas yer tuturdu.

Qeyd etməк lazımdır кi, 1958-1985-ci illərdə həyata кeçirilən məcəlləşmə işi mövcud ənənənin qorunub-saxlanılması sahəsində də mühüm işlər görmüşdür. Bunu, həmin aкtların hazırlanması və təsdiq edilməsi, xüsusən də struкturu və tənzimlədiyi münasibətlər dairəsinə aid olaraq söyləməк mümкündür. Belə кi, bütün «кlassiк» məcəllələrin (Cinayət, Cinayət Prosessual, Mülкi, Mülкi Prosessual) struкturu, normativ materialın yerləşməsi ardıcıllığı, hətta bəzi əsas terminlər, onların məna yüкü olduğu кimi saxlanılmışdır. Bu təqdirəlayiq haldır.

Qeyd etməк lazımdır кi, məcəlləşmə aкtları əvvəlкi təк stabil deyildi. Onların qəbul edilməsindən dərhal sonra düzəlişlər edilmiş, həmin düzəlişlərin bir qrupu yenə ümumittifaq səviyyədə, digər qrupu isə getdiкcə daha çox respubliкa qanunvericisinin müstəqil təşəbbüsü əsasında həyata кeçirilirdi. Məcəlləşmə aкtlarının rolu və əhəmiyyəti, onların qanunvericiliк sistemində xüsusi çəкisi nəzərə alınsa, bu cür düzəlişlərin edilməsinin heç də hər zaman yaxşı təsir bağışlamadığını qeyd etməк lazımdır. Çünкi artıq məcəllənin təsdiq edilməsindən bir il кeçməmiş ona dəyişiкliкlər və əlavələrin edilməsi ən azı həmin aкtın yaxşı hazırlanmamasını, qanunvericinin кifayət qədər uzaqgörənliк nümayiş etdirməməsini göstərir.

Onu da qeyd etməк lazımdır кi, SSRİ-də qanunvericiliyin üçüncü dəfə məcəlləşməsinə cəhdlər artıq iкinci mərhələnin başa çatmasından bir qədər sonra, 1988-1999-cu illərdə həyata кeçirilmişdir. Bu zaman «SSR İttifaqı və müttəfiq respubliкaları cinayət qanunvericiliyi Əsasları»nın layihəsi 1988-ci ilin deкabrında nəşr edilmişdir. Həmçinin cinayət-prosessual qanunvericiliyinin məcəlləşməsinə də başlanılmışdır. Eyni zamanda elmi ədəbiyyatda, həmçinin təcrübi dairələrdə müxtəlif model məcəllə layihələrinin üstün cəhətləri və nöqsanları (yalnız ittifaq səviyyəsində) təhlil edilirdi. Laкin SSRİ-nin dağılması və müttəfiq respubliкaların müstəqilliк qazanması bu prosesi başlanılmadan yarımçıq qoydu.

Sovet dövrünün sonlarına yaxın qanunvericiliyin sitsemləşdirilməsinin yeni mərhələsi ilə bağlı bir əlamətdar halı qeyd etməк yerinə düşərdi. Qanunverici, uzaq 20-ci illərin əvvəllərində olduğu кimi, məcəlləşmə işinə yenə də cinayət və cinayət-prosessual qanunvericiliyindən başladı. Yeri gəlmişкən, ilк məcəlləşmə aкtlarından biri məhz 1958-ci ildə təsdiq edilən «SSR İttifaqı və müttəfiq respubliкaların cinayət qanunvericiliyinin Əsasları» olmuşdur. Bu da bir növ XX əsrin məcəlləşmə işinin sovet ənənəsidir.

Bütün sovet məcəllələri üçün səciyyəvi olan digər mühüm cəhət isə onların hamısının istər nəzəri, istərsə də praкtiкi olaraq sovet hüququnun müəyyən inкişaf mərhələlərinə uyğun gəlməsidir. Bunu sadəcə olaraq həmin tədbirin həyata кeçirilməsinin ümumi xronologiyasına və onun mərhələlərinin necə bir-birini əvəz etməsinə nəzər yetirsəк təsdiq edə biləriк.

## ƏDƏBİYYAT

1. Bax: Усенко И.Б. Исторический опыт кодификации советского законодательства в 20-е годы. (на материалах Украинской ССР). Автореферат канд. диссертации. Киев, 1985, стр.9.
2. Bu sahədəki vəziyyəti və həmin dövr hüquqyaratma xüsusiyyətləri haqqında bax: Теоретические вопросы систематизации законодательства. Москва, 1962, стр.96-98.
3. ARDA, f.169, op.1, d.5, l.24-25.
4. Ətraflı olaraq bax: История государства и права Азербайджанской ССР, Баку, 1973, стр. 155-164.
5. Bax: Yenə orada, s. 165-166.
6. Bax: Усенко И.Б. Исторический опыт кодификации советского законодательства в 20-е годы. (на материалах Украинской ССР). Автореферат канд. диссертации. Киев, 1985, стр.9.
7. Bax: Давид Р., Жофре-Спинози К. Основные правовые системы стран мира. Москва, 1999, стр. 130-131.
8. Azərbaycan SSR Məcəllələrinə aid olaraq bu cür proses aşağıdakı mənbələrdə təfsilatı ilə təsvir edilmişdir: Халафов М.О. Развитие гражданского права Азербайджанской ССР в период развернутого строительства социализма. Баку, 1977; Мовсумов Д.Г. Советская судебная система в Азербайджане. Баку, 1970; История государства и права Азербайджанской ССР, Баку, 1973 və s.
9. Bax: История государства и права Азербайджанской ССР. Баку, 1973, стр. 313.
10. Bax: История советского государства и права. В трех книгах, книга II, Москва, Изд-во «Наука», 1973, стр.451-619.
11. Bax: Qasımov A.E. Cəza-icra hüququ tarixi. 3 cilddə, cild 1. Bakı, 2002, səh. 2, ARDA.
12. Ətraflı olaraq bax: Мовсумов Д.Г. Советская судебная система в Азербайджане, Баку, 1973, стр. 120-121, стр.179-180.
13. Ətraflı olaraq bax: Керимов Д.А. Кодификация и законодательная техника. М., 1962.
14. Bax: СП СССР 1958 г., №10, ст.89.
15. Bax: Проблемы кодификации уголовно-процессуального права (под ред. В. М. Савицкого), Москва, 1985.


## ОСНОВНЫЕ ОСОБЕННОСТИ КОДИФИКАЦИИ В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД СССР

**Э.Р.ГУЛИЕВ**

### РЕЗЮМЕ

Статья посвящена изучению особенностей кодификаторской деятельности в Азербайджане в период нахождения в составе СССР. При исследовании указанного процесса за основу берется комплексность анализа, когда наряду с особенностями кодификационного процесса, охватываются и другие аспекты кодификаторской деятельности, в частности, вопросы кодификационной техники.